# QAZAXISTANDA KİTABXANA İŞİNİN ƏSAS İNKİŞAF MƏRHƏLƏLƏRİ

**P.KAZIMİ**
***tarix üzrə fəlsəfə doktoru***
***pkazimi@mail.ru***

**N.HÜSEYNOVA**
***BDU-nun Kitabxanaşünaslıq kafedrasının magisti***
***nubar.huseynova@mail.ru***

***Açar sözləri:*** *Qazaxıstan kitabxanaları, müasir kitabxana xidməti, milli kitabxana, elektron resurslar*

*Qazaxıstan Respublikasının kitab və kitabxana mədəniyyəti Orta Asiya xalqlarının ümumi mədəni irsi kontekstində araşdırılır. Qazax xalqının kitab və kitabxana mədəniyyətinin inkişaf mərhələləri xülasə şəklində ifadə edilir.*

Müasir dövrdə hər bir dövlətin intellektual səviyyəsini xarakterizə edən ən əsas mərkəzlərdən biri onun informasiya resurslarını toplayıb, mühafizə edən və səmərəli istifadəsini təşkil edən milli kitabxana sistemidir. Professor A.A. Xələfovun yazdığı kimi "Dünyanın qabaqcıl ölkələrində hələ XVII əsrdə meydana gəlib, formalaşan milli kitabxanalar sonrakı əsrlərdə daha da təkmilləşmiş, "dövlət kitabsaxlayıcısı", milli ədəbiyyatı qoruyub saxlayan, mədəniyyətin qızıl fondunu yaradan bir müəssisə kimi məşhurlaşmışdır" (2, 12-14).

Türk xalqlarının hər birinin ayrı-ayrılıqda zəngin qədim kitab mədəni irsi mövcuddur. Türk dövlətləri içərisində zəngin kitab mədəniyyətilə fərqlənən dövlətlərdən biri də Qazaxıstan dövlətidir.

Qazaxıstan rəsmi adı ilə Qazaxıstan dövləti Orta Asiya və Qərbi Avropada müstəqil bir dövlət kimi tanınır. 2717000 km² ərazisi ilə dünyanın ən böyük IX ölkəsi sayılan Qazaxıstan dövləti həmçinin müsəlman ölkələri və türk dövlətləri baxımından da ən böyük və təbii qaynaqlarla zəngin olan ölkə hesab edilir.

Qazaxıstanın uzun müddət təsir altında olmasının nəticəsi olaraq onun mədəniyyətinin inkişafına öz mənfi təsirini göstərdi. Lakin SSRİ dağıldıqdan sonra bu xalqın mədəni həyatının bütün sahələrində böyük inkişaf baş verdi. Bu inkişaf SSRİ tərkibindən çıxmış Qazaxıstanda kitabxanaların sayının durmadan artması, beynəlxalq informasiya sistemləri ilə əlaqələrin möhkəmlənməsini, kitabxana işinin nəzəri problemlərinin hazırlanmasını tələb

edirdi. Bu tələbatı ödəmək üçün dünya kitabxanaşünaslıq praktikasına əsaslanmaq və digər dövlətlərə inteqrasiya etmək lazım gəldi.

Qazaxıstan Türk dövlətləri içərisində kitab və kitabxana mədəniyyəti, ümimiyyətlə kitabxana işi sahəsindəki inkişaf səviyyəsinə görə fərqlənən dövlətlərdən biri olmuşdur. Burada fəaliyyət göstərən kitabxanalar öz fəaliyyətlərinə, əsasən XIX əsrdən başlayıb. Uralksıda, Ust – Kamenoqorstda, Pavlodarda, Çimkəntdə yaradılmış ilk kitabxanalar əhalinin bilik və mədəniyyət mənbələrinə çevrilmişdi (6, 449).

1871-ci ildə Ural kütləvi kitabxanası yaradıldı. Bu kitabxanada Ural sakinlərinə pulsuz oxu zalından istifadə və pullu evə kitab vermək xidməti göstərilirdi.

1883-cü ildə Semipalatenskdə ümumi kitabxananın əsası qoyulur. 1896-cı ildə də Ust-Kamenqorstda kitabxana yaradılır. 90-cı illərdə həmçinin Karkaralinski də, Zaysanidə, İrgizidə ümumi kitabxanalar fəaliyyət göstərirdi. Pavladors şəhərinin kütləvi kitabxanasının illik uçotu isə 1892-ci ildə aparılmışdır (4, 450).

Bir neçə kənd və qəsəbələrdə də xalq kitabxanaları yaradılmışdır. Kustanda və Aktubinskdə pullu və pulsuz kitabxanalar fəaliyyət göstərirdi. 1922-ci il məlumatına əsasən respublika ərazisində müxtəlif növ və tipdə olan 662 kitabxana fəaliyyət göstərirdi.

1929-cu ilin yayında bütün Sovet məkanında olduğu Qazaxıstanda da “kitabxana yürüşü” təşkil edildi. Bunun nəticəsi olaraq 100 kütləvi kitabxana açılmışdı. 1934-cü il məlumatında isə burada 1049 kitabxananın fəaliyyət göstərməsi əks olunmuşdur.

60-cı illərdə respublika ərazisində elmi-texniki kitabxana təşkil olunur. 80-cı illərdə olan məlumatlara əsasən kitabxanada çalışan elmi işçilərin sayı 970-ə çatmışdır.

90-cı illərin sonunda respublikada 21 min kitabxana fəaliyyət göstərirdi. Bunlardan 19 elmi texniki, 82 tibb, 62 universitet, 22 akademiya, 8 pedaqoji, 17 min məktəb kitabxanasını göstərmək olar (1, 6).

1932-ci ildə SSRİ EA-nın Qazaxıstan bazası, 1938-ci ildə onun əsasında SSRİ EA-nın Qazaxıstan filialı yaradıdı. 1942-ci ildə isə Qazaxıstan SSRİ EA-nın elmi tədqiqat müəssisəsi Alma – Atada təşkil olundu. Bu müəssisə Qazaxıstanda fəaliyyət göstərən elmi tədqiqat müəssisələri üçün metodik mərkəz rolunu oynayırdı.

1941-ci ildə Alma–Atada əsası qoyulmuş Elmi Tibb Kitabxanasının fondunda 338 min nüsxədən ibarət ədəbiyyat mühafizə olunurdu.

1951-ci ildə Alma-Atada Respublika Uşaq Kitabxanasının əsası qoyulur. Bu kitabxana elmi-metodiki və koordinasiya mərkəzi kimi uşaq və yeniyetmələrə xidmət işinə dair mərkəz rolunu oynayırdı. Bu mərkəzdə uşaq və yeniyetmələr üçün rus və qazax dillərində ölkəşünaslıq biblioqrafiyası

yerləşdirilmişdi. 1971-ci ildə Alma - Atada korlar və əlillər üçün kitabxana yaradıldı.

1976-cı ildə Alma-Atada Respublika Dövlət Gənclər Kitabxanası təşkil olundu. Kitabxana respublikada yerləşən bütün gənclər kitabxanaları üçün elmi-metodik mərkəz hesab olunurdu. 1971-ci ildə Alma - Atada korlar və əlillər üçün kitabxana yaradıldı.

1984-cü ildə Alma – Atada elmi pedaqoji kitabxana təşkil olunur. Biblioqrafik informasiya mərkəzi hesab olunan bu kitabxana pedaqoji ədəbiyyatı öz fondunda qoruyub saxlayırdı. 98 min nüsxədən ibarət pedaqoji ədəbiyyat fondda yerləşdirilmişdi.

Müasir dövrdə də Qazaxıstanda bir çox elmi müəssisələr yaradılmışdır ki, həmin elmi müəssisələrin tərkibində kitabxanalar təşkil olunmuşdu. Bunlardan Alma-Ata Energetika İnustutu, Alma-Ata Dövlət Konservatoriyası, Beynəlxalq Hüquq və Beynəlxalq Biznes İnustutu, Danker Universiteti kimi təhsil müəssisələri yaradılmışdır ki, onların da zəngin kitabxana fondu təşkil olunmuşdu.

2004-cü ilin iyun ayında Astanada Qazaxıstan Dövlət Milli Akademiya kitabxanasının əsası qoyulur. Kitabxana yarandığı gündən etibarən mədəniyyət və maarifləndirici funkisayını yerinə yetirməyə başlayır və öz kitab fondlarının tamamlanmasını həyata keçirir. Burada internet, elektron resurs, linqofon zalı fəaliyyət göstərir.

Qazaxıstanın ən böyük informasiya mərkəzi Qazaxıstanın müstəqilliyi ilə yaşıd olan Respublika Milli Kitabxanasıdır. 1910-cu ildə şəhər dumasının qərarına əsasən dövlət kitabsaxlayıcısı, elm, informasiya, mədəniyyət, maarifləndirici, informasiya funksiyalarını yerinə yetirən Alma-Ata kitabxanasının əsası qoyuldu. Bu kitabxana “Tolstoy adına kütləvi kitabxana” kimi tanınırdı. 1920-ci ildə isə onun bazası əsasında Semiriçinski əyalətinin ictimai kitabxanası təşkil olundu. Kitabxana 1931-ci ildə “Qazaxıstan SSR dövlət kütləvi kitabxanası” adlandırıdı. 1931-1937-ci illər arasında isə Kitab Palatası funksiyasını yerinə yetirməyə başladı. 1937-ci ildən kitabxananın adı dəyişdirilərək “Puşkin adına Qazaxıstan SSR Dövlət kütləvi kitabxanası” adlandırıldı. 1991-ci il dekabr ayının 16-sından etibarən Qazaxıstanın müstəqillik əldə etməsi ilə əlaqədar olaraq kitabxana “Qazaxıstan Respublikasının Milli Kitabxanası” statusunu qazanır.

Kitabxana yarandığı gündən etibarən regionda milli kitabsaxlayıcı funksiyasını yerinə yetirməyə başlayır. O, həmçinin respublikanın mədəniyyət və incəsənət üzrə elmi informasiya mərkəzi funksiyasını da yerinə yetirdi. Kitabxana tezliklə biblioqrafiyaşünaslıq və qazax tarixi kitabları üzrə elmi informasiya mərkəzi funksiyasını daşımağa başladı.

Alma-Ata Dövlət Milli kitabxanasının fondu 1931-ci ildə ümumilikdə 64 min çap vahidini əhatə edirdisə, 1982-ci ildə isə bu göstərici 4 milyondan

çox olmuşdur. Oxucuların sayı 1940-cı ildə 9 min idisə, 1982-ci ildə 55 minə qədər artmışdır.

Qazaxıstanda tarix və mədəniyyətin inkişafı sahəsində bir sıra qanun və qərarlar qəbul edilmişdir. Qəbul edilən ilk qanun "Tarix və Mədəniyyət Mirası Abidələrinin Qorunması və İşlədilməsi" haqqında olmuşdur. Bu qanun 1992-ci ilin iyul ayında qəbul edilmiş və əsas məqsədi respublika ərazisində yerləşən tarixi və mədəni abidələrin qorunması olmuşdur.

Tarix və mədəniyyət mirasının qorunması sahəsində həyata keçirilən addımlardan biri də 2004-2006-cı illər üçün nəzərdə tutulan "Mədəniyyat Mirası" adlı dövlət proqramının hazırlanması olmuşdu. Bu proqramın həyata keçirilməsi nəticəsində ölkədə mədəniyyət işi sahəsində əsaslı dəyişikliklər olmuşdur. 2011 - ci il aprelin 26-dan 28-dək Qazaxıstanın paytaxtı Astanada Türkdilli Ölkələrin Parlament Assambleyasının 2-ci plenar iclası keçirilib. Tədbirdə iştirak etmək üçün Milli Məclisin sədri Oqtay Əsədovun başçılıq etdiyi nümayəndə heyəti aprelin 26-da Qazaxıstana səfər etmiş, səfər çərçivəsində Milli Məclis sədrinin Qazaxıstan prezidenti Nursultan Nazarbayevlə görüşü baş tutmuş, eləcə də digər bir sıra ikitərəfli görüşlər də həyata keçirilmişdir (9).

Beləliklə, apardığımız tədqiqat işindən belə bir nəticəyə gəlmək olar ki, Qazaxıstan yalnız XX əsrdə formalaşmış kitabxana şəbəkəsinə malik olmuşdur. Bu dövrə qədər isə Respublika ərazisidə heç bir formalaşmış kitabxana şəbəkəsi mövcud olmamışdır.

## ƏDƏBİYYAT

1. *Azərbaycan Sovet Ensiklopediyası. Qazaxıstan SSR. 10 cilddə. II cild. Bakı, 1978, 592 s.*
2. *Xələfov A.A. Kitabxana və cəmiyyət. Monoqrafiya. Bakı: Azərnəşr, 2011, 348 s.*
3. *Xələfov A.A. Cəmiyyət və Mədəniyyət // Kitabxanaşünaslıq və informasiya, 2010, №3, s.8-14.*
4. *Kazımi P. Türk xalqlarının əlyazma kitabı və onun yayılma arealı // Kitabxanaşünaslıq və biblioqrafiya, 2012, №1(7), s.59-76.*
5. *Бердигалиева Р.А. Национальная библиотека Республики Казахстан в системе трансляции культуры // Вестник БАЕ, 2002, №3, с.9.*
6. *Библиотечная энциклопедия. Казахстан. Национальная Библиотека, 2007, с.219.*
7. *www.kazakistalmati.blogspot.com*
8. *www.meclis.gov.az*

## THE MAIN STAGES OF DEVELOPMENT OF LIBRARY WORK IN KAZAKHSTAN

**KAZIMI P.F.**
***pkazimi@mail.ru***

**HUSEYNOVA N.**
***nubar.huseynova@mail.ru***

### *SUMMARY*

***Keywords:*** Library of Kazakhstan, the modern library services, library natsionalnaya, e-resources.

*Books and library culture of Republic of Kazakhstan are investigated in the context of a common cultural heritage of the people Central Asia. Stages of development of the books and library culture of Kazak's people is expressed in the form of summary.*

## ОСНОВНЫЕ ЭТАПЫ РАЗВИТИЯ БИБЛИОТЕЧНОГО ДЕЛА В КАЗАХСТАНЕ

**КАЗЫМИ П.Ф.**
***БГУ, доктор философии***
***по историческим наукам***
***pkazimi@mail.ru***

**ГУСЕЙНОВА Н.**
***nubar.huseynova@mail.ru***

### *РЕЗЮМЕ*

***Ключевые слова:*** *Библиотеки Казахстана, современние библиотечное обслуживание, нацоналная библиотека, електронные ресурсы.*

*Книжная и библиотечная культура рассматривается в контексте культурного наследия народов средней Азии. Статья обзорно охватывает книжную и библиотечную культуры Казахстанского народа и этапы его развития.*